**Azərbaycan və Latviya arasında qida təhlükəsizliyi üzrə əməkdaşlıq**

- AQTA tərəfindən Latviya Respublikasının müvafiq qurumları ilə qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində birbaşa əlaqələr yaradılmışdır və əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində mütəmadi olaraq işlər həyata keçirilir.
- 2026-cı ilin 16 aprel tarixində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri ilə Latviya Respublikasının Kənd Təsərrüfatı naziri arasında görüş keçirilmişdir. Görüş zamanı ölkəmizdə qida təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən beynəlxalq əməkdaşlıq çərçivəsində görülən işlər barədə qonaqlara ətraflı məlumat verilmişdir. Görüşdə iki ölkə arasında bitki sağlamlığı sahəsində birgə fəaliyyət, o cümlədən zərərli orqanizmlərin erkən aşkarlanması məqsədilə süni intellekt, uzaqdan müşahidə və GIS (Geographic Information System) xəritələşmə texnologiyalarının tətbiqi üzrə əməkdaşlıq imkanları nəzərdən keçirilmişdir. Həmçinin pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin qeydiyyatı, qiymətləndirilməsi və tətbiqi proseslərinin təkmilləşdirilməsi məqsədilə Latviya təcrübəsinin öyrənilməsi, o cümlədən pestisidlərin insan sağlamlığına və ətraf mühitə potensial təsirlərinin qiymətləndirilməsi üzrə Avropa İttifaqının risk əsaslı yanaşmalarının tətbiqinə dair metodoloji dəstəyin əldə edilməsi məsələləri müzakirə olunmuşdur. həyata keçirilməsi, təcrübə mübadiləsinin artırılması ilə bağlı fikir mübadiləsi aparıblar.
- 2025-ci il 14 may tarixində Agentliyin sədri ilə Latviya Respublikasının kənd təsərrüfatı naziri arasında görüş keçirilmişdir. Görüşdə gələcək əməkdaşlıq imkanlarına, o cümlədən birgə layihələrin həyata keçirilməsinə dair müzakirələr aparılmış, ölkəmizdə qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən işlər barədə müqabil tərəfə ətraflı məlumat verilmişdir. Görüşdən sonra nümayəndə heyəti Agentliyin tabeliyində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun ixtisaslaşmış laboratoriyaları ilə yaxından tanış olmuş, qonaqlara laboratoriyalarda aparılan müayinələr, səriştəlilik sınaqları və digər elmi-tədqiqat fəaliyyətləri barədə ətraflı məlumat verilmişdir.
- Agentliyin sorğusu əsasında 2025-ci il 11 iyun tarixində Latviya Respublikasının Qida və Baytarlıq Xidməti ilə görüş keçirilmiş, idxal və ixrac əməliyyatları zamanı aşkarlanan uyğunsuzluqlarla bağlı görülən tədbirlər, prosedurlar və qərar qəbuletmə mexanizmlərinin təkmilləşdirilməsi ilə əlaqədar təcrübə mübadiləsi aparılmışdır.
- Agentliyin Kollegiyasının 2025-ci il 4 fevral tarixli 53 nömrəli Qərarı ilə Latviya Respublikasının qida obyektlərinin təsdiq sisteminin ekvivalentliyi tanınmış və bu barədə Agentliyin 2025-ci il 7 fevral tarixli məktubu ilə Latviya Respublikasının Qida və Baytarlıq Xidmətinə məlumat göndərilmişdir.
- 2024-cü il 21 fevral tarixində Latviyanın Kənd Təsərrüfatı Nazirliyi, Qida və Baytarlıq Xidməti, eləcə də Latviyanın ölkəmizdəki Səfirliyinin nümayəndələri ilə Agentlikdə görüş keçirilmişdir. Latviyanın yüksək riskli məhsul ixrac edən müəssisələrin təsdiqi və

qida təhlükəsizliyinə nəzarət sisteminin ekvivalentliyinin tanınması nəzərdən keçirilmiş, ölkəmizdən bitkiçilik məhsullarının Latviyaya ixracının genişləndirilməsi və “Qırmızı körpü” qida təhlükəsizliyi nəzarət məntəqəsinin akkreditasiya prosesi ilə bağlı Latviya təcrübəsinin öyrənilməsi barədə razılıq əldə edilmişdir.

- 2024-cü il 9 aprel tarixində Latviya Respublikasının Qida və Baytarlıq Xidməti ilə Agentliyin nümayəndələri arasında görüş keçirilmiş, Azərbaycanda sərhəddə qida təhlükəsizliyinə nəzarət məntəqələrinin qurulması ilə bağlı təcrübə və fikir mübadiləsi aparılmışdır.
- 2023-cü il 7 dekabr tarixində AQTA sədri Qoşqar Təhməzli Latviya Respublikasının ölkəmizə təyin olunmuş səfiri Edqars Skuya ilə görüşüb. Görüşdə Azərbaycanda qida təhlükəsizliyi sahəsində görülən işlər, beynəlxalq əməkdaşlıq, 2024-cü ilin yanvarından qüvvəyə minən “Qida təhlükəsizliyi haqqında” qanun və Latviya ilə əməkdaşlıq məsələləri müzakirə olunub.
- 14 iyul 2022-ci il tarixində AQTA sədri Qoşqar Təhməzli Latviya kənd təsərrüfatı naziri Kaspars Gerhards ilə görüşüb. Görüşdə ölkədə qida təhlükəsizliyi, ixrac-idxal prosedurları və gömrükdə nəzarət məntəqələrinin yaradılması barədə məlumat verilib.
- 2020-2023-cü illərdə “Azərbaycanda sanitar və fitosanitar tədbirlərin gücləndirilməsi” adlı tvinninq layihəsi üzrə Agentliklə tərəfdaş ölkələrdən biri olan Latviyanın aidiyyəti qurumları arasında sıx əməkdaşlıq həyata keçirilmişdir. Layihənin komponentləri çərçivəsində qida təhlükəsizliyi, bitki sağlamlığı, eləcə də laboratoriyaların işinin təkmilləşdirilməsi üzrə Latviya ilə geniş təcrübə mübadiləsi aparılmışdır.
- Müvafiq sahələrdə əməkdaşlığın təşviqi, normativ bazanın təkmilləşdirilməsi məqsədilə 2022-ci il 20 may tarixində "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Latviya Respublikasının Qida və Baytarlıq Xidməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”, 2026-cı il 22 aprel tarixində “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Latviya Respublikasının Dövlət Bitki Mühafizəsi Xidməti arasında bitki sağlamlığı və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” və 2022-ci il 1 aprel tarixində “Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu ilə Latviya Respublikasının Qida təhlükəsizliyi, Heyvan sağlamlığı və Ətraf mühit İnstitutu arasında Anlaşma Memorandumu” imzalanmışdır.